# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 344** **Bakı şəhəri, 3 sentyabr 2022-ci il**

***"Donorlar, resipiyentlər və donor orqanların vahid dövlət informasiya bazasının Əsasnaməsi"nin təsdiq edilməsi haqqında***

"İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının 2020-ci il 20 oktyabr tarixli 189-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1208 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Donorlar, resipiyentlər və donor orqanların vahid dövlət informasiya bazasının Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin 6-cı hissəsində nəzərdə tutulmuş müvafiq məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunmasını təmin etmək məqsədilə həmin məlumatların "Donorlar, resipiyentlər və donor orqanların vahid dövlət informasiya bazası"na daxil edilməsini (ötürülməsini) mütəmadi olaraq təmin etsinlər.

**3.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Preziden-tinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti .-2022.- 8 sentyabr.- S.6.